*Əliyeva Fidan Şahin qızı, magistrant,*
*Bakı Biznes Universiteti,*
*Email: fidanaliava@gmail.com*

# QARABAĞ İQTİSADİ RAYONUNUN İXRAC POTENSİALININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Torpaqlarımızın işğaldan azad olunduğu belə bir sevincli məqamda ölkənin əsas strateji vəzifəsi ərazilərin bərpası, eləcə də  iqtisadi dəyər, inkişaf istiqamətlərinin şaxələndirilməsidir. Araşdırmalar əsasında belə bir nəticəyə gəlmək olar ki, həmin ərazilərdə ən son texnologiyalar vasitəsilə əlverişli sahibkarlıq, biznes mühitinin formalaşması qeyri-neft sektorunun səmərəli inkişafına təsir edəcək, yerli məhsulların istehsalının artımı ilə ölkə daxili tələbatın ödənməsi, ixrac potensialının genişləndirilməsinə töhfə verəcək.

Qarabağ rayonunun əsas ixrac məhsulları xalçalar, qızıl, mis, konserv məhsulları,

şərab və araqdır. Xüsusilə, Rusiya, Avropa ölkələrinə, ABŞ-a ixrac olunur. Burada ölkə üçün əhəmiyyət kəsb edən su anbarları, bol sulu çaylar da mövcuddur. Kəlbəcər və Laçın rayonlarında olan şirin su ehtiyatları əsasında mineral suların emalı, qablaşdırılması həm yerli bazar, həm də xarici istehsalda böyük fayda verə bilər. Yeni yaradılacaq elektrik stansiyaları vasitəsilə ölkənin enerji təminatının yaxşılaşdırmaq, eyni zamanda enerji ixracının müəyyən hissəsini öz öhdəsinə götürmək zəmini yaranacaq. Təsərrüfatçılıq baxımından çıxış edərək tarixən bu bölgənin baramaçılıq, bostançılıq, meyvə-tərəvəz, pambıqçılıq, tütünçülük, üzümçülük, heyvandarlıq ilə məşhur və bu kimi sahələrin inkişafı üçün çoxşaxəli istiqamətləri olan bölgə kimi təzahür edə bilərik. Qarabağ bölgəsində azad olunan əkin sahəsi 100.000 hektara bərabərdir. Ölkəmizin taxıl və taxıl məhsullarından idxalını azaltmaq, həmçinin kənd təsərrüfatının intensiv inkişafı üçün bu torpaqlardan səmərəli istifadə bir növ alternativ üsul kimi qiymətləndirilir. Arıçılıq, quşçuluq, emal sənayesi, metallurgiya,turizm-rekreasiya kimi sahələr də yüksək iqtisadi dəyərə malikdir. Yatırılan sərmayələr həm idxalın əvəzlənməsi, qeyri-neft sektoru üzrə ixracın artması, həm də dəyərlər zəncirinə qoşulmaq baxımından əhəmiyyət kəsb edəcək. Bu səbəbdən aqrar sahənin inkişafında kooperativlərin, sənaye parklarının, aqroparkların, eləcə də, fermer təsərrüfatı məhsullarının emalından ən son hazır məhsul alınana kimi bütün pillələri əhatələyən klasterlərin yaradılmasına üstünlük verilməsi daha effektiv addım ola bilər.

Hazırda işğaldan azad olunmuş torpaqların bərpa və inkişafı ilə əlaqədar müəyyən proqramlar hazırlanıb ki, onların yerinə yetirilməsinin əsas istiqaməti kimi həmin ərazilərin iqtisadi potensialı, həmçinin torpaq, meşə, su və digər təbii ehtiyatlarını nəzərə almaqla, turizm, sənaye, kənd təsərrüfatı, eləcə də digər infrasturktur sahələrinin dirçəldilməsi format kimi çıxış edir. Təsərrüfat sahələrinin inkişafı ilə əlaqədar yaradılacaq "smart-village", "smart-city", yəni "ağıllı-şəhər" konsepsiyası dünya stan-dartlarına cavab verəcək, xarici yatırımlar üçün maraq dairəsi olacaq. Burada investorların maraqlarına səbəb olacaq strateji aktivlər, təbii resurslar, bazarlar, səmərəlilik dəyərləri var. Bölgənin həm Naxçıvan ərazisi üzərindən 83.000 milyonluq Türkiyə bazarı, həm də 80 minyonluq İran bazarına çıxış fürsəti ixrac-istiqamətli yatırımlar üçün əlverişlidir. Qarabağ iqtisadi zonası zəngin yeraltı, yerüstü təbii ehtiyatlara: əlvan metallar, qızıl, filiz, civə, əhəng, mərmər və s. kimi mineral ehtiyatlar, geniş kurort rekreasiya dəyərlərinə malikdir. Həmçinin Qarabağ ''Yaşıl enerji'' zonası kimi elan edilmişdir. Əlavə olaraq, tikinti sektoru üçün zəruri hesab olunan bir-çox inşaat materialları: kərpic, çınqıl, əhəng daşı, sement, tikinti qumu və s. vardır. Bütün bunlar nəticəsində, yüngül, yeyinti, tikinti malları kimi sənaye sahələri dinamik inkişafa əsaslana bilər.

Bütün sadalananlar Qarabağ iqtisadi rayonunun Azərbaycanın istər siyasi, istərsə də, iqtisadi fəaliyyətində önəmli dərəcədə rola malik olduğunu bariz şəkildə göstərir. Azad olunan torpaqların yenidən dirçəlməsi, bərpası nəticəsində, iş yerlərinin açılması, ölkəyə xarici valyuta axını, ixrac yönümlü istehsalın artırılması, yeni əlavə dəyər yaradılması, ölkənin ÜDM-nin artması, neft sektoruna nəzərən qeyri-neft sahəsinin gəlir mənbələrinin genişləndirilməsi, həmin ərazilərdə istehsal olunan mal və xidmətlərin rəqabət potensialının təmin olunmasına imkanlar yaradacaq. Qeyd olunan tədbirlərin sistematik, davamlı, vaxtında icrası Azərbaycanın beynəlxalq aləmdə inteqrasiya prosesinin sürətləndirilməsi, regional güçünün artması, ən əsası əhalinin həyat səviyyəsinin yaxşılaşdırlması ilə nəticələnə bilər.